# Azərbaycan regionda sülhün bərqərar olmasına daim sadiqlik nümayiş etdirir



***Son illər ərzində Azərbaycan-Rusiya əlaqələri mehriban qonşuluğa, qarşılıqlı hörmət prinsiplərinə əsaslanan dinamik inkişaf yolu keçib. Hər iki ölkənin dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla tərəqqi edib. Şübhəsiz ki, qarşılıqlı müntəzəm görüşlər də dövlətlərarası münasibətlərə yüksək dinamizm verib, siyasi, sosial-iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradıb.***

Azərbaycanla Rusiya arasında ticarət-iqtisadi əlaqələr son illər möhkəmlənib. Belə ki, 2021-ci ilin sonunda ticarət dövriyyəsi 3,4 milyard ABŞ dolları (2020-ci ilə nisbətən 16,1 faiz artım), Rusiya ixracı 2,3 milyard ABŞ dolları (artım 12 faiz), idxal 1 milyard ABŞ dolları (artım 26,8 faiz), cari ilin yanvar-fevral aylarında isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz artaraq, 478,5 milyon ABŞ dolları təşkil edib

Xatırladaq ki, 2024-cü ilə qədər "Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" da ardıcıl olaraq həyata keçirilir, o cümlədən, altı "yol xəritəsi"nin (ticarət, nəqliyyat infrastrukturu, yüksək texnologiyalı sənayelər, iqtisadiyyatın səmərəliliyinin artırılması, turizm, əməkdaşlıq innovativ inkişaf və rəqəmsal texnologiyalar sahəsində) icrasında da müsbət nəticələr nəzərə çarpır.

Rusiya-Azərbaycan regionlararası əməkdaşlığının əhəmiyyəti də son illər ərzində artmaqda davam edib. Bu fəaliyyətə Rusiya Federasiyasının 70-dən çox subyekti cəlb olunub. Onlardan 18-i Azərbaycanla ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müqavilə bağlayıb.

Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən, aparılan söhbətin məzmununda da iki ölkə arasında yaranan əlverişli siyasi, sosial-iqtisadi şəraitin mövcudluğu diqqət çəkib. Dövlətimizin başçısı çıxışında cari ilin əvvəlində Rusiyaya rəsmi səfəri ilə Azərbaycanla bu ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olduğunu, Rusiya rəhbəri Vladimir Putinlə birgə imzaladığı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin ikitərəfli münasibətlərə yeni siyasi məzmun gətirdiyini bildirib. Azərbaycan Prezidenti deyib: "Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, belə müsbət ahəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Bəyannamənin müddəalarının implementasiyası çərçivəsində artıq xeyli iş görülüb. Əminəm ki, sizin səfəriniz çərçivəsində bu istiqamətdə yeni addımlar atılacaq. Əlamətdar haldır ki, diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində biz görülmüş bütün işlərə müəyyən mənada yekun vurduq və dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafının sonrakı istiqamətlərini müəyyən etdik".

Xatırladaq ki, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının əsasında hər iki ölkə prezidentinin təşəbbüsləri dayanır, bununla bağlı təklif edilən proqramlar uğurla reallaşır. Məhz elə bunun nəticəsidir ki, hazırda Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələr yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlıq yeni inkişaf mərhələsindədir.

Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir. Bununla bağlı diqqəti bəzi məqamlara yönəltmək istərdik. Əvvəlcə onu deyək ki, bir az əvvəl xatırlatdığımız iki dövlət arasında 2018-ci ilin sentyabrında imzalanan "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nda əks olunan altı "yol xəritəsi" iqtisadi əlaqələrimizin genişlənməsinin mühüm istiqamətlərini müəyyənləşdirir. Həmin "yol xəritələri" ticarət, nəqliyyat, ölkəmizin ərazisində birgə istehsal sahələrinin qurulması, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti, habelə humanitar sahədə əməkdaşlığı nəzərdə tutur. Yeri gəlmişkən, iki ölkə arasındakı "Sərbəst ticarət haqqında saziş" ticarət əməkdaşlığının daha da genişləndirilməsi üçün əlverişli imkanlar yaradır.

Ümumiyyətlə, son illərdə Azərbaycan-Rusiya arasında birgə keçirilən görüşlər, fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün mühüm önəm daşıyıb. Dövlətimizin başçısı bu məsələ ilə əlaqədar çıxışlarının birində deyib: "Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmlənməsində çox mühüm rol oynayıb. Münasibətlərimizin çox geniş gündəliyi daim diqqətdə saxlanılıb və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etməsinə xüsusi əhəmiyyət verilib".

Dövlətimizin başçısı Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən, yaşadığımız regionun hazırkı vəziyyətinə, münaqişədən sonrakı şəraitə də toxunaraq, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə danışıb: "Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək".

Prezidenti İlham Əliyev söhbətində Ermənistanla danışıqlarda müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun işinin intensivləşməsini də vurğulayıb. Eyni zamanda, yaxın vaxtlarda Sankt-Peterburqda yeni görüş keçirildiyini xatırladaraq, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində praktiki addımlar atılacağına əminliyini diqqətə çatdırıb: "Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib. Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik,-deyə dövlətimizin başçısı bildirib.

Yeri gəlmişkən, Rusiya Federasiyasının xarici işlər naziri Serqey Lavrovun Azərbaycana səfəri çərçivəsində iki ölkənin xarici işlər nazirləri tərəfindən 24 iyun 2022-ci il tarixdə imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"in mühüm önəm daşıması da diqqətə çatdırmaq istərdik. İki ölkənin informasiya təhlükəsizliyi sahəsində mövcud olan təhdidlərin qarşısının səmərəli şəkildə almaq məqsədi daşıyan adı çəkilən sazişdə informasiya təhlükəsizliyinin təmin olunmasına əsas təhdidlər sırasında:

- dövlətlərin suverenliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün pozulmasına yönəlmiş aktlar;
- mühüm informasiya infrastrukturu obyektlərinə kompüter hücumları;
- terrorçuluğun təbliğatı və terror məqsədləri;
- dövlətin daxili işlərinə qarışmaq və ictimai qaydanın pozulması;
- millətlərarası, irqlərarası və konfessiyalararası ədavətin qızışdırılması, separatçılığın və ekstremizmin, nifrət və diskriminasiya yaradan, zorakılığa və qeyri-sabitliyə təhrik edən irqi və ksenofobiya fikirlərin təbliğ olunması;
- vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan və ya ağır nəticələrə səbəb olan hallar haqqında bilərəkdən yalan məlumatın etibarlı mesajlar adı altında açıq şəkildə yayılması və digər hallar qeyd edilir.

Tərəflər bu sazişə əsasən, təhlükəsizlik və sabitliyin qorunub saxlanılması, suverenliyə, ərazi bütövlüyünə, dövlət sərhədlərinin təhlükəsizliyinə və toxunulmazlığına qarşılıqlı hörmət bəslənilməsi, mübahisə və münaqişələrin sülh yolu ilə tənzimlənməsi, həmçinin ikitərəfli əməkdaşlıq və dövlətlərin informasiya resurslarına müdaxilənin qarşısının alınması prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun fəaliyyətin gerçəkləşdirilməsi öhdəliklərini götürürlər.

Burada onu da xatırladaq ki, Azərbaycan dövlətimizin xarici siyasətinin ana xəttini təşkil edən heç bir ölkənin daxili işlərinə qarışmamaq kimi prinsipə hər zaman olduğu kimi, bu gün də mühüm önəm verir. Eyni zamanda, qarşılıq olaraq, heç bir ölkəyə də daxili işlərimizə müdaxilə olunmamasını istəyir. Hazırda isə belə bir fəaliyyətin "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"lə reallaşdırılması böyük əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, adı çəkilən saziş Rusiya və Azərbaycan arasında bu dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, vətəndaşların təhlükəsizliyinə təhdid yaradan, separatçılıq və ekstremizm təbliğinə yönələn halların informasiya-kommunikasiya texnologiyalarından istifadəsi ilə mübarizəni nəzərdə tutur.

Ümumiyyətlə, "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Rusiya informasiya məkanından Azərbaycana, yaxud əksinə, istiqamətlənən mümkün təhdidlərin bloklanmasına, müttəfiqlik əlaqələrimizə xələl gətirən meyllərin qarşısının sərtliklə alınmasına əsas yaradacaq.

Burada bir məqamı da xüsusi qeyd etməliyik. Uzun illərdir ki, Rusiyada erməni lobbisinin himayədarlığı ilə Rusiyanın informasiya məkanından Azərbaycana qarşı təhdid xarakterli çıxışlar səsləndirilir. Bu sazişin gerçəkləşməsi ilə Ermənistanın uydurma, şantaj xarakterli informasiya fəaliyyəti dayandırılır.

Xatırladaq ki, "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması erməni separatçılarının ciddi narahatlığına səbəb olub. Bu, onlar tərəfindən təşvişlə qarşılanıb. Bununla da Ermənistanın Rusiya mediasında anti-Azərbaycan fəaliyyətinin qarşısı əsaslı şəkildə alınıb.

Yeni sazişdə diqqətçəkən bir məqam həm də terrorçuluğa qarşı mübarizənin gücləndirilməsi ilə bağlıdır. Burada əsas məsələ erməni separatizminin aradan qaldırılmasında Azərbaycanın fəaliyyətinə mane olan prosesin əngəllənməsindən ibarətdir.

Yeri gəlmişkən, bütün bu məqamlar bu il fevralın 22-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanan 43 maddəlik "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"sində də öz ifadəsini tapıb. Həmin Bəyannamədə yazılıb: "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar".

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" bu baxımdan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin daha da əsaslandırılmış davamı kimi sənədin reallaşdırılmasına yönəldilib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***